

# Qırğız ədəbiyyatından notlar

***Qırğız ədəbiyyatında xalq yaradıcılığı nümunələrinin özünəməxsus yeri var. Qırğız folklorunun ən geniş yayılmış janrı nəğmələrdir. Toy və yas mərasimlərində səslənilən Bekbekey", "Saksakey", "Şırıldan", "Kostoşu", "Arman" və s. nəğmələrdə qırğızların sevinc və kədəri öz əksini tapıb. Qırğızlarda nəğmələrin özünəməxsus ifa tərzi var. Onlar nəğməyə "ır" adı verdiklərinə görə onun ifaçısına "ırçı" demişlər. Irçılar həm nəğmə ifa etmişlər, həm də özləri şeir qoşmuşlar. Məsələn, "Manas" ırçılar tərəfindən ifa edildiyinə görə dastana yeni əlavələr edilmiş, orijinal mətndən fərqli olaraq dastandakı misraların sayı təxminən bir milyona çatıb. Qırğızlarda xalq nəğmələri üslubunda şeir qoşanlar akın adı ilə tanınırlar. Akın poeziyası məhz bu şəxslərin simasında formalaşmış, akınlar "moktoo", "arnoo", "aytış" və s. janrlarda müxtəlif mövzulu şeirlər yazmışlar.***

Qədim tarixə, zəngin mif və şifahi xalq ədəbiyyatı ənənələrinə sahib olan qırğızların yazılı ədəbiyyatı əsasən XX əsrin əvvəllərində yaranmağa başlayıb. Orta Asiyada sovet hakimiyyətinin qurulması bu regionda müstəmləkəçiliyi, totalitarizmi gücləndirməklə yanaşı, burda yaşayan xalqların ictimai-siyasi və mədəni həyatında da mühüm dəyişiklərin yaranmasına səbəb olub. Baş vermiş ictimai-siyasi proseslər bu məkanda yaşayan qırğızların da həyatına təsirsiz ötüşməyib. Bu dövrdən başlayaraq (Oktyabr inqilabından sonra) Qırğızstanda məktəblərin açılması, savadsızlığa qarşı mübarizənin gücləndirilməsi, yeni qəzet və jurnalların çapı, teatr və kitabxanaların yaradılması və s. hallar ölkə daxilində mədəni həyatın dirçəlməsinə, indiyə qədər mövcud olan xalq ədəbiyyatı nümunəsindən fərqli olaraq yazılı ədəbiyyat örnəklərinin yaranmasına səbəb oldu. Yeni yaranan qəzet və jurnallar ilk növbədə yazılı ədəbiyyatın inkişafına daha güclü təsir göstərirdi. Lakin XX əsrin əvvəllərində bu regionda çap olunan dərslik, qəzet və jurnalların əsasən qazax və tatar dillərində olması yazılı ədəbiyyat nümunələrinin də həmin dillərdə yazılmasına səbəb oldu. Məsələn, XX əsrin əvvəlləri qırğız yazılı ədəbiyyatın ilk nümayəndələrindən biri olan Sadıq Karaçev əsərlərini tatarca, Qasım Tınıstov isə qazaxca yazıb. Lakin bu o demək deyildi ki, yaranan bütün bədii nümunələr qazax və tatar dillərində idi. Çünki XX əsrin əvvəllərində Qırğızstanda yaranan yeni ictimai-siyasi münasibətlər ilk növbədə qırğız yazılı dili və qırğız yazılı ədəbiyyatının inkişafı üçün böyük zəmin yaratmışdı. 1924-cü ildə qırğız dilində çap olunan "Ərkin too" ilk qəzet kimi təkcə qırğız mətbuat tarixi üçün yox, həm də qırğız yazılı ədəbiyyat tarixi üçün mühüm hadisəyə çevrildi. Aalı Tokombayev, Toktoqul Satılqanov, Toqolov Moldo, Qasımalı Bayalinov, Tugelbay Sıdıqbayev, Kılıç Şamırkanulun və s. kimi yeni nəsil qırğız şair və yazıçılarının əsərlərinin çap olunub yayılmasında "Ərkin too" qəzeti mühüm rol oynayırdı. Kılıç Şamırkanulunin "Zilzala" (1924) şeirlər kitabı, M.Tokombayevin "Turdının ölümü" (1927) poeması, "Kakey" (1927) pyesi, Q.Bayalinovun "Həcər" (1927) pyesi və s. nümunələr XX əsrin 20-ci illər qırğız ədəbiyyatının inkişaf xəttini müəyyənləşdirmək baxımından səciyyəvidir. Tugelbay Sadıqbayevin 1937-ci ildə yazdığı "Gen su" romanı qırğız ədəbiyyatında roman ənənəsinin başlanğıcı oldu. Suyunbay Eraliyevin "Dostlarıma məktub" (1949), Soranbay Curuyevin "Ömür yazı" (1950), "Ümid" (1960), Alıkul Osmanovun "Tandağı izlər" (1935), "Məhəbbət" (1945), "Ata yurdu" (1958) kitablarındakı şeirlər, Sadıq Karaçevin "Evlilikdən qacdı", "Sevdiyinə qovuşmadı", "Kədərli iki gənc" hekayələri və bu dövrdə yazib-yaratmış digər sənətkarların əsərləri 30-50-ci illər yeni dövr qırğız ədəbiyyatının realist poeziya və nəsr nümunələri hesab olunur.

***Çingiz Aytmatov, Mukan Elebayev, Coomart Bokonbayev, Cusup Turusbayev, Raykan Şükürbayev, Qasıməli Jontaşev, Calil Sadıqov və digər sənətkarların sayəsində müasir qırğız ədəbiyyatı özünün yeni inkişaf mərhələsinə qədəm qoyub.***

**Elman Quliyev**
**Filologiya üzrə elmlər doktoru, professor**

Türküstan.- 2020.- 8-14 dekabr. S. 23.